

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 182 (23.093)

*26 sentyabr 2018-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Bakı Ekspo Mərkəzində açılan "ADEX-2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi ilə tanış olub.

Dövlətimizin başçısı əvvəlcə mərkəzin qarşısında nümayiş etdirilən hərbi məhsullara və texnikalara baxıb.

Sonra Prezident İlham Əliyev Baku Ekspo Mərkəzinin daxili pavilyonlarındakı stendlərlə tanış olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Bolqarıstanın Baş nazirinin ictimai asayiş və təhlükəsizlik üzrə müavini, müdafiə naziri Krasimir Karakaçanovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Dövlətimizin başçısı həmin gün Avropa İnvestisiya Bankının vitse-prezidenti Vazil Hudakın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



## 2018-ci ilin yanvar-avqust aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2018-ci ilin yanvar-avqust aylarında 1 milyard 757 milyon 595 min 400 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz artaraq 3872 manatı ötmüşdür.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 726 milyon 450 min manat dəyərində məhsul istehsal edilmişdir. Bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2018-ci ilin yanvar-avqust aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas



kapitala 646 milyon 45 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,6 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 608 milyon 606 min manatı və ya 94,2 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2018-ci ilin yanvar-avqust aylarında 293 milyon 730 min 900 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur. Bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,8 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 13969 tona, süd istehsalı isə 67148 tona çatmışdır. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 5,9 faiz, süd istehsalı isə 1,7 faiz artmışdır.

* * *

Bu ilin yanvar-avqust aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 34 milyon 428



min 500 manat olmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 2,7 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 28 milyon 292 min manat təşkil etmiş və bir il öncəyə nisbətdə 2,1 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2018-ci ilin yanvar-avqust aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 35 milyon 419 min 700 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,7 dəfə çoxdur. Verilmiş kreditlərin 3 milyon 697 min 900 manatı və yaxud 10,4 faizi qısamüddətli, 31 milyon 721 min 800 manatı və yaxud 89,6 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 382 növdə məhsul istehsal olunur ki, bunun da 126 növü ərzaq, 256 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.



1 sentyabr 2018-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 77030-a çatmışdır ki, bunun da 68093-ü və ya 88,4 faizi aktiv hesablardır. 2018-ci ilin yanvar-avqust aylarında açılmış 11828 bank hesabının 11703-ü aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 sentyabr 2018-ci il tarixə 1270-ə çatmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin



genişlənməsinə müsbət şərait yaratmış, 2018-ci ilin yanvar-avqust aylarında 317 milyon 620 min 300 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 285 milyon 194 min 600 ABŞ dolları təşkil etmiş, 252 milyon 768 min 900 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

2018-ci ilin yanvar-iyul aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 430 manata çatmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,8 faiz çoxdur.

* * *

1 avqust 2018-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3481 nəfər artaraq 454 min 613 nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Ehtiyata buraxılmış zabitlərə vəsiqələr təqdim edilib



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən 2 iyul 2018-ci il tarixdə Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində 7-ci ehtiyat zabit hazırlığı kursunu bitirərək ehtiyata buraxılmış zabitlərə vəsiqələri təqdim edilib.*

Tədbirdə Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyevin hərbi elmi əsaslarla yaratdığı Azərbaycan Silahlı Qüvvələri bu gün Cənubi Qafqazın ən güclü, peşəkar ordusuna çevrilib. Ümummilli liderimizin əsasını qoyduğu ordu quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və bu məqsədyönlü iş muxtar respublikada da qətiyyətlə aparılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə ordu, birləşmə və hissələr mühüm təşkilatlanma yolu keçərək günbəgün daha da güclənir. Keçirilən təlimlərdə peşəkarlığı artan hərbi qulluqçularımız ən çətin döyüş tapşırığının öhdəsindən layiqincə gəlirlər.

Vurğulanıb ki, son dövrlər hərbi xidmətə marağı artan gənclərimiz hazırlıq kurslarında iştirak edərək peşəkar hərbçi kimi yetişirlər. Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində yeddincisi təşkil edilmiş ehtiyat zabit hazırlığı kursunda 163 nəfər iştirak edib. Onlardan 32 nəfəri kursu bitirdikdən sonra ordu sıralarında xidmətini davam etdirib, 131-i isə ehtiyata buraxılıb.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-mayor Asəf Quliyev, Fövqəladə hallar nazirinin müavini, general-mayor Hikmət Kərimov, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının komandiri, polkovnik Səlim Niftəliyev ölkəmizdə aparılan genişmiqyaslı ordu quruculuğundan və muxtar respublikamızın etibarlı müdafiəsi ilə bağlı həyata keçirilən tədbirlərdən danışıblar.

Çıxış edənlər müvafiq qurumlarda iş imkanı olduğunu bildirərək ehtiyatda olan zabitlərə ixtisaslarına uyğun iş yerləri təklif ediblər.

Sonda ehtiyat zabit hazırlığı kursunu müvəffəqiyyətlə bitirərək ilkin zabit rütbəsi almış gənclərə vəsiqələr təqdim edilib.

**Nəriman NƏCƏFOV**

## "Worldfood Moscow 2018" Beynəlxalq Ərzaq Sərgisində Naxçıvan məhsulları nümayiş olunub

Sentyabrın 17-də Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində "Worldfood Moscow 2018" sərgisi keçirilib. Sərgidə İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə "Made in Azerbaijan" vahid ölkə stendində qida, meyvə-tərəvəz, şərab və digər spirtli içkilər, fındıq və qurudulmuş meyvə, çay, konservləşdirilmiş məhsullar, qənnadı məmulatları və digər məhsulların istehsalı və ixracı ilə məşğul olan 35 Azərbaycan şirkəti təmsil olunub.




Sərgidə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən sahibkarlıq subyektlərindən "Ləzzət Qida Sənaye" MMC-nin və Babək "Sirab" ASC-nin nümayəndələri iştirak ediblər.

Tədbirdə "Made in Azerbaijan" vahid ölkə stendi altında "Ləzzət Qida Sənaye" MMC tərəfindən istehsal olunan vafli peçenyelər, şokoladlı vaflilər və lokumlar, Babək "Sirab" ASC-nin isə bütün növ "Sirab" mineral suları nümayiş olunub.

Tədbir zamanı hər iki sahibkarlıq subyektinin nümayəndələri Rusiya Federasiyası və xarici şirkət rəsmiləri ilə əməkdaşlıq imkanları barədə müzakirələr aparılıb.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

*Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan diyarı tarixən Şərqlə Qərb arasında əlaqələrin inkişafında əhəmiyyətli rol oynayıb. Dünyanın bu böyük iki sivilizasiya məkanı arasında fərqli mədəniyyətlərin, elm, ticarət, dini və bəşəri dəyərlərin mühüm tranzit qovşağı kimi tanınan Naxçıvan əsrlər əvvəl olduğu kimi, bu gün də öz strateji əhəmiyyətini qoruyub saxlayır. Bu əhəmiyyətlilik təkcə diyarın coğrafi baxımdan strateji ərazidə yerləşməsi ilə deyil, həm də tarixən Naxçıvanın multikultural dəyərlərə malik olması, milli, dini və bəşəri dəyərlərə tolerant münasibəti ilə bağlıdır. Buna görə də qədim diyar həm Şərq, həm də Qərb insanına doğmadır, açıqdır. Məhz Naxçıvanın bu zənginliyi müasir dövrdə onun daha çox tanıdılmasına, təbliğ edilməsinə böyük fürsətlər açır. Sentyabrın 21-23-də Naxçıvanda "Avropa günləri"nin keçirilməsi də bu baxımdan öz əhəmiyyəti ilə seçilir.*

# Naxçıvan müasir dövrdə mədəniyyətlərarası münasibətlərin inkişafına böyük töhfə verir



Hər şeydən əvvəl onu qeyd edək ki, bu mühüm tədbirdə Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri, Azərbaycanda akkreditə olunmuş Avropa İttifaqı ölkələrinin diplomatik missiyalarının rəhbərləri və nümayəndələri olmaqla, ümumilikdə, 60 nəfər iştirak edirdi. Qonaqlardan bir qismi əvvəllər Naxçıvanda olmuşdursa da, bəziləri üçün Azərbaycandan ayrı düşmüş bu diyarı görmək çox maraqlı idi. Çünki gələn qonaqların hər biri bilirdi ki, Naxçıvan anklav bir ərazidir, müharibə vəziyyətində olan düşmən ölkə ilə birbaşa sərhədlərə malikdir və münaqişə başlayandan sonra blokadaya salınıb. Lakin bununla belə, digər qonşuları ilə lazımi əməkdaşlıq imkanlarına malik olması və bu imkanlardan səmərəli istifadə etməsi, həmçinin bölgənin özünün böyük potensialı Naxçıvanın hərtərəfli inkişafına zəmin yaradıb. Nəticədə, muxtar respublika blokada şəraitində hərtərəfli inkişafın əsl nümunəsini ortaya qoyaraq özünün çiçəklənən dövrünü yaşayır.

Sentyabrın 22-də keçirilən mətbuat konfransında səsləndirilən fikirlərdən də aydın oldu ki, avropalı qonaqlar Naxçıvanı daha yaxından tanımaq, bir sıra istiqamətlər üzrə qarşılıqlı olaraq əməkdaşlığı inkişaf etdirmək niyyətindədirlər. İqtisadiyyatın müxtəlif sahələri, o cümlədən kənd təsərrüfatı, sənaye, energetika, həmçinin təhsil, yeni innovasiyaların tətbiqi qeyd olunan istiqamətlərdən önə çıxanlarıdır. Həmin gün qonaqlar tərəfindən bir sıra orta ümumtəhsil məktəblərində və universitetlərdə tanışlıq xarakterli təqdimatların reallaşdırılması, Naxçıvanın tarixi abidələri və mədəniyyət müəssisələri ilə tanışlığı bu diyarın yüksək elmi və mədəni potensialına malik olduğunu bir daha nümayiş etdirdi.

Növbəti gün diplomatların Naxçıvan Biznes Mərkəzində muxtar respublikanın iqtisadi mənzərəsi ilə daha yaxından tanış olması, yerli sahibkarlar, həmçinin iqtisadiyyat və kənd təsərrüfatı sahələrinə cavabdeh rəsmi şəxslərlə görüşməsi isə qonaqlarımıza mövcud iqtisadi potensialı əyani şəkildə dəyərləndirmək imkanı qazandırdı. Əslində, Naxçıvan heç də Avropa ölkələri üçün yeni kəşf edilmiş bölgə deyil. Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskasın dediyi kimi, "... Bu gün Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq, həmçinin qarşılıqlı etimad və münasibətlər inkişaf edir. Avropa İttifaqı Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır, eyni zamanda ittifaqa üzv olan ölkələrin şirkətləri Azərbaycanın həm neft, həm də qeyri-neft sektoruna böyük həcmdə sərmayə yatırıblar. Azərbaycanda fəaliyyət göstərən həmin şirkətlərin sayı ötən il 300 olmuşdursa, artıq bu il onların sayı 385-ə çatıb. Avropa İttifaqından olan bir sıra şirkət Naxçıvanda da fəaliyyət göstərir, onlar enerji sektoruna, o cümlədən bərpaolunan mənbələrdən alınan enerji sahəsinə, həmçinin kənd təsərrüfatı sahəsinə sərmayə yatırıblar".

Ancaq Naxçıvanın inkişafı bir neçə sahə ilə məhdudlaşmadığından belə bir tədbirin keçirilməsi muxtar respublikamızın tanıdılması üçün çox əhəmiyyətli idi.

Ertəsi gün Naxçıvanqalada rəsmi açılışla şəhər sakinlərinə və qonaqlara təqdim olunan "Avropa şəhərciyi" isə burada təmsil olunan ölkələrlə bağlı ümumi məlumatlandırma məqsədi daşıyırdı. Tədbirdə qərbli qonaqlar Naxçıvanın milli mədəniyyəti ilə yaxından tanış olmaq fürsətini də əldə etdilər. Diplomatlar kütləvi informasiya vasitələrinə verdikləri müsahibələrdə sakinlərin tədbirə kütləvi maraq göstərmələrinin onlarda böyük təəssürat oyatdığını bildirdilər. Hər biri tədbirin yüksək səviyyədə təşkili, təqdim olunan proqramların keyfiyyəti ilə bağlı xoş sözlər səsləndirdi. Həmçinin qonaqlar bir daha şahidi oldular ki, tarixən zəngin milli mədəniyyətə və dəyərlərə malik Naxçıvan müasir dövrdə mədəniyyətlərarası münasibətlərin inkişafına böyük töhfə vermək gücündədir.

Naxçıvanda "Avropa günləri"nin keçirilməsi bir sıra tərəflərinə görə əhəmiyyətlidir. Birinci ona görə ki, ilk dəfədir, Avropa İttifaqı Naxçıvanda belə geniş miqyasda tədbir keçirdi. İştirakçılar içərisində Avropa İttifaqına üzv olan ölkələrin 17 səfirliyinin yüksək səviyyəli nümayəndələrinin olması tədbirin əhəmiyyətindən xəbər verirdi. Təsadüfi deyil ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvan şəhərində "Avropa günləri"nin keçirilməsini muxtar respublikaya olan etimadın və tədbirlərin yüksək səviyyədə keçirilməsinə inamın ifadəsi kimi dəyərləndirdi.

Digər tərəfdən nəzərə alaq ki, bu il Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı kimi bütün dünyada bu mədəniyyətin təbliğatçısı statusunda çıxış edir. Təkrarçılığa varmadan qeyd edək ki, bu status şəhərlərə, sadəcə, islamiyyətə məxsusluğuna görə deyil, həm də bu böyük mədəniyyətin, islami dəyərlərin inkişafında və təbliğində oynadığı rola görə verilir. Bundan əlavə, Naxçıvan bu il həm də ölkəmizdə Gənclər Paytaxtı seçilib. Bu seçim beynəlxalq status daşımasa da, ölkədə aparılan siyasətin məğzini özündə ifadə edir. Yəni onu göstərir ki, muxtar respublikada da gənclər ictimai həyatın aparıcı qüvvəsidir. Onlara dövlətimiz tərəfindən hərtərəfli qayğı göstərilir.

Beləliklə, Naxçıvan bu gün İslam ölkələrindən bura təşrif buyuranlar üçün islami dəyərlərin qorunduğu və inkişaf etdirildiyi, bu dəyərlərin ən yüksək səviyyədə bəşəri dəyərlərə çuğlaşdığı mühüm tarixi və mədəni mərkəzlərdən biri, qərblilər üçün isə Şərqdə ilk demokratik dövlət quruculuğunun tətbiq olunduğu bir ölkənin ayrılmaz tərkib hissəsi, İslam dininə məxsus, ancaq, eyni zamanda bəşəri dəyərlərin, tolerant münasibətlərin əsrlərlə qorunub saxlanıldığı məkan, elm və təhsilin inkişafında yeni innovasiyaların tətbiq edildiyi müasir texnoloji nailiyyətlərə əsaslanan aqrar və sənaye iqtisadiyyatına malik inkişaf etmiş bir diyardır.

*Bir sözlə, Naxçıvanın ildən-ilə əhəmiyyətli tədbirlərə ev sahibliyi etməsi, qazandığı uğurlar onun beynəlxalq aləmdə mühüm və etibarlı tərəfdaş kimi tanınmasında çox böyük rol oynayır.*

**Səbuhi HƏSƏNOV**

# Təhsil quruculuğunda uğurlu nəticələr əldə olunur

*Cəmiyyətin hərtərəfli inkişafı üçün biliyin əsas şərt olduğu dövrümüzdə bilikli gənclərin yetişdirilməsi üçün müasir təhsil sisteminin yaradılması günümüzün əsas məsələlərindəndir. Bacarığı ilə ölkəmizin sərvətlərinə sahib çıxa bilən, əməyi ilə daha çox dəyər yaradan savadlı gənclər məhz mütərəqqi təhsillə ərsəyə gələn potensial kimi artıq iqtisadi-mədəni həyatımızın hər sahəsində qabiliyyətlərini ortaya qoymaqdadır. Müasir təhsil quruculuğunda etibarlı kadr təminatı və müasir infrastruktur yaradılması isə bu gün prioritet məsələlərdən biridir. Ölkəmizdə müəyyənləşdirilmiş "Maddi dəyərlərin, iqtisadi potensialın insan kapitalına çevrilməsi" prinsipi əsasında muxtar respublikamızda həyata keçirilən təhsil quruculuğu tədbirləri də məhz bu istiqamətdə davam etdirilməkdədir.*



Naxçıvan Muxtar Respublikası bütün sahələrdə olduğu kimi, təhsildəki uğurları ilə də ölkəmizdə liderliyini qoruyur. İldən-ilə artan dövlət qayğısı nəticəsində yeni təhsil obyektlərinin istifadəyə verilməsi, maddi-texniki bazanın yenilənməsi və pedaqoji kadrların yeni təhsil üsullarını və informasiya-kommunikasiya texnologiyalarını mənimsəməsi bu sahədəki nailiyyətləri artıran əsas amillərdəndir. Artıq Naxçıvanda təhsilin bütün pillələri üzrə əldə olunan nəticələr iyirmi il əvvəlki göstəricilərdən on dəfələrlə artıq səviyyədədir. Orta məktəbi əla qiymətlərlə bitirib, ali məktəblərə qəbul imtahanlarında daha yüksək nəticələrlə müəllimlərini və ailələrini qürurlandıran gənclərin sayı çoxaldıqca hər birimiz ürəkdən sevinirik. Çünki gələcək həyatımız məhz onlara bağlıdır. Bu il avqust ayının 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikanın ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüşü zamanı dediyi kimi: ***"Yalnız hərtərəfli təhsil alan, peşə öyrənən, özünü ölkəsinin gələcəyinə hazırlayan gənclər dövlətçiliyimizin və müstəqilliyimizin dayağı ola bilərlər".***

Naxçıvan Muxtar Respublikasında yenilənən təhsil infrastrukturunun coğrafiyası çox genişdir. Təkcə cari ildə görülən işlərə nəzər saldıqda, belə tədbirləri Naxçıvan şəhərindəki ali və orta məktəblərdən tutmuş, muxtar respublikanın rayonlarındakı ən ucqar kənd məktəblərində də görmək olar. Bundan əlavə, Naxçıvanın ən ucqar dağ və sərhəd kəndlərində inşa olunan məktəb binaları nə memarlıq üslubundakı quruluşuna, nə də maddi-texniki təchizatına görə şəhər məktəblərindən fərqlənmir. Təkcə son 5 ilin statistikasına nəzər saldıqda, bu sahədə nə qədər nəhəng işlər görüldüyünün şahidi oluruq. Belə ki, bu dövrdə muxtar respublikamızda 63 məktəb, məktəbdənkənar müəssisə, kollec, texniki-peşə məktəbi və rayon təhsil şöbələri üçün binalar tikilib və ya əsaslı təmir olunaraq istifadəyə verilib. Bu quruculuq ərməğanları Naxçıvan şəhəri ilə yanaşı, Şərurun Yuxarı Yaycı, Babəkin Gərməçataq, Ordubadın Tivi, Culfanın Gal, Şahbuzun Gömür kəndlərinədək geniş bir ərazidəki yaşayış məntəqələrini bəzəyir. Cari ildə tikintisi davam etdirilən 10 təhsil müəssisəsi üçün yeni binalar da istifadəyə verildikdən sonra minlərlə şagirdin daha müasir şəraitdə təlim-tərbiyə almasına imkan yaranacaq. Bu və bunlardan əvvəl tikilmiş binalar isə perspektivə hesablanmış tutumları ilə də diqqəti cəlb edir. İstifadəyə verilmiş bu təhsil müəssisələrində yeni tədris metodları tətbiq olunur, müəllim və şagirdlər müasir kompüter və sürətli internetdən istifadə edirlər. Bunun üçün hazırda muxtar respublikanın ümumtəhsil məktəblərində sürətli internetə çıxışı olan 5337 kompüter və 600-dən artıq elektron lövhə, habelə zəngin fonda malik kitabxanalar, laboratoriyalar və fənn kabinələri vardır. Əldə olunmuş nəticələr isə göz qabağındadır. Belə ki, təkcə bu il muxtar respublikanın orta məktəblərinin 331 məzunu qəbul imtahanlarında 500-700 arası bal toplayıb ki, bu da ötən illə müqayisədə 42 nəfər, yaxud 15 faiz çoxdur. Müsabiqədən uğurla keçərək ölkəmizin və muxtar respublikamızın ali məktəblərinin tələbəsi adını qazanmış bu gənclərlə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin artıq ənənə halını almış görüşləri,



bu görüşlər zamanı onların gələcək təhsil və həyat fəaliyyətini mühüm dərəcədə motivasiya edən çıxışlar, hədiyyə edilən pul mükafatı və dəyərli nəşrlər təkcə təhsil ictimaiyyəti üçün deyil, bütün naxçıvanlılar üçün yaddaqalan hadisələrdəndir.

Müasir təhsil sistemi üçün yaradılan şəraitin nəticəsidir ki, muxtar respublikanın tam orta məktəblərindən məzun olan gənclər ali məktəblərə ixtisas seçimi zamanı Naxçıvanda fəaliyyət göstərən ali təhsil müəssisələrinə daha çox üstünlük verirlər. 2018-ci ildə 1170 nəfər, yaxud qəbul olanların 76 faizi ixtisas seçimi zamanı muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrini seçiblər. Başqa sözlə, Naxçıvanda yaşayıb, işləmək və təhsil almaq artıq burada yaşayan bütün insanların zəruri tələbatlarını ödəyən həyat standartı halına gəlib.

Təhsildə yeni tələblərə uyğunlaşmaqda kadr hazırlığı da müasir infrastrukturun yaradılması qədər vacib və həssas məsələdir. Xüsusən məktəb, ailə və şagird üçbucağında təhsillə məşğul olan müəllimlərin üzərinə düşən məsuliyyətin artdığı bir zamanda vəzifəsini daha yaxşı yerinə yetirən, daim öz üzərində çalışmaqla dinamik gəncliyin inkişaf tələbinə cavab verə bilən, informasiya-kommunikasiya texnologiyalarından lazımınca istifadə edib hər gün, hər saat artan yeniliklərə hazır olan kadrlara daha çox ehtiyac duyulur. Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə bilik və bacarıqları qiymətləndirilmiş müəllimlərin əməkhaqlarının artırılması təhsilə, təhsil işçilərinə göstərilən qayğının bariz nümunəsi olmaqla, pedaqoqların bu vacib işdəki daşıdığı məsuliyyəti də müəyyən edir. Bu ildən başlayaraq pedaqoji kadrların işə qəbulunun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən həyata keçirilməsi də ümumtəhsil məktəblərinin pedaqoji kadrlarla təminatının şəffaflığına zəmanət verir.

*Sağlam və savadlı insan hər bir cəmiyyətin ən dəyərli sərvətidir. Belə bir sərvəti əldə edə bilmək üçün onu uzun illər boyu zəhmət çəkib qazanmaq tələb olunur. Allahın şirin payı olan övladlarımızı vətənpərvər, universal biliklərə, dərin dünyagörüşə və mədəniyyətə sahib bir şəxs kimi formalaşdırmaq üçün təhsilə özəl münasibət göstərmək uğurlarımızın açarıdır. Bu uğurlar isə xalqımıza və dövlətimizə hər şeydən daha çox lazımdır.*

**Əli CABBAROV**

## Yubiley tədbiri keçirilib



Dünən Rəna Hüseynovanın anadan olmasının 70 illik yubileyi münasibətilə tədbir keçirilib.

“Təbriz” mehmanxanasının tədbirlər zalında təşkil edilən çay süfrəsi ətrafında keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək Rəna Hüseynovanı yubiley münasibətilə təbrik edib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikada qadınlarımızın əməyi yüksək qiymətləndirilir, ictimai-siyasi fəaliyyəti ilə dövlətimizə xidmət etmiş qadınların yubileyləri qeyd olunur. Bütün bunlar onların cəmiyyətdə fəallığının artırılmasına göstərilən yüksək dövlət qayğısının əyani təzahürüdür.

Vurğulanıb ki, yaşadığı mənalı insan ömrü ilə həyatın bütün xoşbəxtliklərinə çatmış, həmişə öz işindən zövq almış yubilyar 1948-ci il sentyabrın 25-də Şahbuz rayonunda anadan olub. 1967-ci ildə Bakıda Mirzə Fətəli Axundov adına Xarici Dillər İnstitutunun Rus dili və ədəbiyyatı ixtisasını bitirib. Əmək fəaliyyətinə 1972-ci ildə Əkbər Ağayev adına internat məktəbində rus dili müəllimi kimi başlayıb. Həmin ildə Naxçıvan şəhər 9 nömrəli məktəbdə, 1974-cü ildə isə yenidən internat məktəbində müəllim, 1979-cu ildə Maarif Şöbəsində rus dili üzrə metodist işləyib.

Qeyd olunub ki, Rəna Hüseynova 1984-cü ildə Maarif, Ali Məktəb, Elm İşçiləri Həmkarlar İttifaqı Naxçıvan Şəhər Komitəsinin sədri vəzifəsinə seçilib. 1992-ci ildə 705 nömrəli hərbi hissənin uşaq bağçasının, 2011-ci ildə isə Naxçıvan Şəhər Qarnizonu Zabitlər Evində Mədəni-bədii iş üzrə bölmənin müdiri vəzifələrində çalışıb. Ömrünü müəllimlik peşəsinə, uşaqlara həsr edən Rəna xanım 2012-ci ildən təqaüddədir. İşində uğur qazanmış Rəna Hüseynova eyni zamanda gözəl ailə başçısıdır.

Sonra Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədr müavini Xatirə İbrahimli yubilyarı təbrik edib və ona Həmkarlar İttifaqları Şurası tərəfindən hazırlanmış fəxri fərman təqdim edib. Yubilyarın keçmiş iş yoldaşları Vahidə Qasımova və Ülkər Abbasova Rəna Hüseynovanı təbrik edib və onunla bağlı xatirələrindən bəhs ediblər.

Rəna Hüseynova və qızı Ayşən İmanlı göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova öz minnətdarlıqlarını bildiriblər.

Sonda yubilyara gül buketi və qiymətli hədiyyə təqdim olunub.

**Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

*Prezident təqaüdçüləri*

## Hədəflərə və arzulara çalışmaqla çatmaq olar

***Bu gün muxtar respublikamızda gənclərin hərtərəfli, müasir şərait və texniki avadanlıqlarla təchiz olunmuş məktəblərdə təhsil alması onları arzularına, qarşıya qoyduqları məqsədə çatmağa daha da yaxınlaşdırır. Xalqımızın adət-ənənələrinə, milli və ümumbəşəri dəyərlərə dərindən yiyələnir, yüksək mənəviyyatlı, vətənpərvər və ixtisaslı gənclər kimi yetişirlər. Yaradılan hərtərəfli şərait isə bu gün gənclərin məsuliyyət hissini daha da artırır, onları ölkəmizin inkişafı naminə təhsildə böyük uğurlar qazanmağa sövq edir.***



Avqustun 20-də Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüşü zamanı Ali Məclisin Sədri cənab Vasif Talıbov demişdir: ***“Dövlətin məqsədi ondan ibarətdir ki, yaradılmış müasir təhsil şəraitindən istifadə edən gənclər düzgün həyat yolu seçsinlər. Çünki yalnız hərtərəfli təhsil alan, peşə öyrənən, özünü ölkəsinin gələcəyinə hazırlayan gənclər dövlətçiliyimizin və müstəqilliyimizin dayağı ola bilərlər”.***

Builki qəbul imtahanlarında yüksək bal toplayan və Prezident təqaüdünə layiq görülən muxtar respublika gənclərindən biri də Zöhrə Kəngərlidir. 2001-ci il iyunun 5-də Naxçıvan şəhərində anadan olan Zöhrə 2007-ci ildə Bakı şəhərində Heydər Əliyev adına Liseyin 1-ci sinfinə qəbul olunur. 2008-ci ilin may ayından Naxçıvan şəhər Əkbər Ağayev adına 8 nömrəli tam orta məktəbdə təhsilini davam etdirir. 2018-ci ildə həmin məktəbi əla qiymətlərlə bitirir və qəbul imtahanında III ixtisas qrupu üzrə 690 bal toplayaraq tələbə adını qazanır. Hazırda o, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquqşünaslıq ixtisasında təhsilini davam etdirir. Elə buna görə də Zöhrə ilə sosial şəbəkə vasitəsilə həmsöhbət olduq. O bildirdi ki, qəbul imtahanı onun üçün uğurlu keçib. Mənim üçün əsas problem vaxt idi və buna görə çox həyəcanlı idim. Cavab kartımı yoxlayarkən İngilis dili fənnindən iki səhvim çıxdı. 700 bal toplamağı qarşıma məqsəd qoysam da, nəticəmdən razı idim.

Zöhrə məktəbdə təhsil aldığı illərdə çoxsaylı uğurlara imza atıb. Məktəbdə keçirilən sınaq imtahanlarında həmişə 600-dən yuxarı bal toplayıb. X sinifdə təhsil alanda sınaq imtahanında 700 bal yığdığına görə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin diplomu ilə təltif olunub. IX-X siniflərdə Azərbaycan Respublikası üzrə keçirilən fənn olimpiadalarında iştirak edib. Azərbaycan dili və ədəbiyyat fənni üzrə keçirilən olimpiadalarda I yer tutaraq qalib olub və Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən iki dəfə “Qızıl” medalla təltif edilib. XI sinfi bitirən zaman məktəbdə yaxşı oxuduğuna, imtahanlarda göstərdiyi uğurlu nəticələrə görə Azərbaycan Respublikası Təhsil Nazirliyinin fərqlənmə diplomu və “Qızıl” medalı ilə təltif olunub. Muxtar respublika üzrə keçirilən fənn olimpiadalarında həmişə I yer tutaraq diplom və fəxri fərmanlar alıb.

Hələ ibtidai sinifdə təhsil alarkən gələcək peşəsini müəyyənləşdirib və bu yolda dayanmadan çalışıb. Gecə-gündüz oxumaqla, qəbul imtahanında yüksək nəticə göstərib.

O deyir ki, qarşıdakı hədəflərim isə seçdiyim ixtisas üzrə yaxşı bilik almaq, peşəmi daha dərindən öyrənmək, cəmiyyətimiz üçün faydalı olmaqdır. Düşünürəm ki, əgər insan qarşısına qoyduğu məqsədləri ilk olaraq özü aydın dərk edirsə, bu yol onun üçün həmişə işıqlı olacaq. Bir atalar sözündə deyildiyi kimi, hədəfi olmayan gəmiyə heç bir külək kömək edə bilməz. Hədəflərinə çatmaqda ona həmişə kömək etmiş müəllimlərini minnətdarlıqla xatırlayan Zöhrə vurğulayır ki, bu gün yüksək bal toplamağında onların əməyi, zəhməti əvəzolunmazdır. Elə yanında böyüyüb boya-başa çatdığım, həm də oxuduğum məktəbdə ibtidai sinif müəllimi kimi çalışan nənəm Məsmə Musayeva da mənim formalaşmağımda çox böyük rol oynayıb. Valideynlərim Bakı şəhərində yaşasalar da, onlar da həmişə mənə dəstək olub, uğurlarıma inanıblar.

Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə keçirilən görüşdə Ali Məclis Sədrinin bizləri təbrik etməsi çox qürurverici idi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 12 sentyabr tarixli Sərəncamı ilə Prezident təqaüdü alan 102 nəfər içərisində adımın olması isə məni ikiqat sevindirdi. İnanıram ki, dövlətimiz tərəfindən göstərilən diqqət və qayğı gələcək uğurlarımda çox böyük rol oynayacaq.

Nənəsi Məsmə Musayeva deyir ki, Zöhrə 7 yaşından mənimlə birgə yaşayır. Bu məktəbə onu özüm gətirmişəm. Zöhrənin ibtidai sinif müəllimi Mina Niftəliyeva həmişə mənə deyirdi ki, bu uşağın gözəl gələcəyi olacaq. Azərbaycan dili və ədəbiyyat fənnindən dərs deyən müəllimi Nərgiz Vəliyeva isə onun bu fənə marağını daha da artırıb. Zöhrə bu fənn üzrə keçirilən olimpiadalarda iştirak edərək iki dəfə “Qızıl” medala layiq görülüb. İbtidai sinifdən fitri istedadı ilə seçilən Zöhrənin məntiqi təfəkkürünün güclü olması onun çətin məsələlərin öhdəsindən asanlıqla gəlməyinə kömək edib. Mən dövlətin bir intellektli, istedadlı gənc kimi nəvəm üzərindəki qayğısını artıqlaması ilə hiss etmişəm. Zöhrənin təhsildəki uğurlarına və fəallığına görə 40-a qədər diplom və fəxri fərmanı vardır. Ona dövlət tərəfindən kompüter, planşet verilib. Bir neçə intellektual yarışmada həmişə qalib gəlib, iştirak etdiyi komandanın şərəfini qoruyub.

Məktəbin direktoru Günay Novruzova da Zöhrə haqqında təəssüratlarını bizimlə bölüşdü. O bildirdi ki, Zöhrə ibtidai sinifdən çox çalışqan olub. Humanitar fənlərə marağı böyük olsa da, riyaziyyat, kimya və digər fənləri də yaxşı oxuyub. O, təhsil aldığı illərdə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin, eləcə də məktəbin keçirdiyi tədbirlərdə, bilik, inşa, esse, intellektual yarışmalarda iştirak edib və birinci yer tutaraq hamımızı sevindirib.

Bu gün harada təhsil almasından, fəaliyyət göstərməsindən asılı olmayaraq, doğma dilini qoruyan, azərbaycanlı adını daim uca tutan, torpağına, dövlətinə bağlı, dövlətçiliyinə sadiq, ölkəsinin gələcəyini düşünən gənclər yetişir. Bu da onu göstərir ki, ölkəmizin gələcəyi əmin əllərdə olacaq, doğma Vətənimiz daim inkişaf edəcək.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Həkim və orta tibb işçisi yerləri üzrə əmək yarmarkası təşkil edilib



*Sentyabrın 25-də Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə səhiyyə müəssisələrində vakant həkim və orta tibb işçisi yerləri üzrə əmək yarmarkası keçirib.*

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov tədbiri giriş sözü ilə açaraq səhiyyə sistemində aparılan quruculuq işlərindən, həyata keçirilən islahatlardan danışıb. O qeyd edib ki, muxtar respublikada tibbi kadrların hazırlanması da diqqətdə saxlanılır. Naxçıvan Dövlət Universitetində ali, Naxçıvan Tibb Kollecində isə orta ixtisas təhsilli tibbi kadrların hazırlanması üçün lazımi şərait mövcuddur. Səhiyyə müəssisələrinin tibbi kadrlara olan tələbatını ödəmək, eləcə də muxtar respublikada hazırlanan ali və orta ixtisas təhsilli kadrların işlə təminatı məqsədilə hər il tibb işçilərinin əmək yarmarkası keçirilir. Ötən il işaxtaranlara 428 həkim, 127 orta tibb işçisi olmaqla, 555 vakant yer təklif edilib, 14 həkim, 19 orta tibb işçisi işə götürülüb. Tibb işçiləri üçün muxtar respublikada bütün zəruri şərait yaradılıb. Kənd yerlərindəki səhiyyə müəssisələrində yeni əmək fəaliyyətinə başlayan gənc mütəxəssislər üçün bir sıra güzəştlər və stimullaşdırıcı tədbirlər müəyyənləşdirilib.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov bildirib ki, vətəndaşların səmərəli məşğulluğunun təmin olunması, onların sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarının inkişafı muxtar respublikada daim diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Son illər iqtisadi islahatların əhatə dairəsinin genişlənməsi, istehsal və xidmət sahələrinin fəaliyyətə başlaması yeni iş yerlərinin açılmasında və əhalinin işlə təminatında əsaslı rol oynayır.

Naxçıvan Dövlət Universitetinin Müalicə işi ixtisası üzrə 2018-ci il məzunu, işaxtaran Əminə Seyidzadə gənc kadrların işlə təminatında əmək yarmarkalarının əhəmiyyətindən danışıb, işəgötürənlər tərəfindən yaradılan şəraitə görə öz minnətdarlığını bildirib.

Sonra işaxtaran ali və orta ixtisas təhsilli məzunlar Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin binasında təşkil edilmiş əmək yarmarkasında iştirak ediblər.

Yarmarkada Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturundakı səhiyyə müəssisələri də daxil olmaqla, 579 vakant yer təklif edilib, işaxtaranları maraqlandıran suallar cavablandırılıb.

Gün ərzində davam edən əmək yarmarkasında 12 həkim, 29 orta tibb işçisi işə göndəriş alıb.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## Növbəti maarifləndirici tədbir



*Dünən Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə “Türk-islam mədəniyyətinin nadir nümunəsi: Qarabağlar Türbə Kompleksi” mövzusunda maarifləndirici tədbir olub.*

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi ilə birgə təşkil olunan tədbiri giriş sözü ilə açan xidmətin əməkdaşı Elvin Cavadov bildirib ki, belə görüşlərin keçirilməsində məqsəd əcnəbilərin Naxçıvanın tarixi, mədəniyyəti, və milli adət-ənənələri ilə daha yaxından tanışlığını təmin etməkdir.

Tədbirdə Mədəniyyət Nazirliyinin əməkdaşı Əli Rzayev çıxış edərək deyib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında” 2016-cı il 4 iyul tarixli Sərəncamına uyğun olaraq Kəngərli rayonunun Qarabağlar kəndindəki türk-islam mədəniyyətinin nadir nümunələrindən olan Qarabağlar Türbə Kompleksi elmi və tarixi əsaslarla bərpa edilib və bu il iyulun 5-də istifadəyə verilib. Bərpa zamanı abidənin tarixi görkəmi qorunub saxlanılıb.

Sonra tədbir iştirakçılarının Qarabağlar Türbə Kompleksinə ekskursiyası təşkil olunub.

**✍ Nail ƏSGƏROV**

## *“Yağış”* filmi maraqla izlənilib



“Gənclik” Mərkəzində “İslam filmləri həftəsi” çərçivəsində məşhur İran rejissoru və ssenaristi Məcid Məcidinin “Yağış” bədii filmi kinosevərlərə təqdim edilib.

“Baran” yaxud “Yağış” filmi 25-ci Monreal (Kanada) Dünya Film Festivalı çərçivəsində “Ən yaxşı film” mükafatına layiq görülüb və Avropa Film Akademiyasının mükafatına namizəd olub. Qeyd edək ki, tanınmış İran rejissorunun çəkdiyi ekran əsərləri dünyada geniş tamaşaçı auditoriyası toplayıb, bir sıra film festivallarında onlarla mükafata layiq görülüb. Yeni İran kinosunun yaradıcılarından hesab edilən Məcid Məcidi “Ata”, “Yağış”, “Sərçələrin nəğməsi”, “Cənnətin uşaqları”, “Tanrının rəngi”, “Söyüd ağacı” və başqa filmlərində insan qəlbinin ən dərin dünyasını bütün cizgiləri və koloriti ilə ekranlaşdırıb.

2001-ci ildə çəkilmiş “Yağış” filmi mövzu və problemin ekran həlli baxımından maraqlıdır. Filmdə Əfqanıstanda baş verən vətəndaş müharibəsindən sonra İranda məskunlaşan qaçqınların ağır vəziyyəti təsvir olunur. Yüksək sənətkarlıq məziyyətlərinə görədir ki, “Yağış” filmi indiyədək müxtəlif beynəlxalq festivallarda 10-dək mükafat qazanıb.

Qeyd edək ki, bu gün “İslam filmləri həftəsi”ndə Özbəkistan və Tacikistan kinematoqraflarının birgə istehsalı olan “Dahinin gəncliyi” filmi tamaşaçılara göstəriləcəkdir.

**Əli RZAYEV**

Journalistin qeydləri

# Təbii sərvətlərimizə, halal qazancımıza sahiblik haqqı

## Bir zamanlar zəhmət çəkib bəhrəsini görə bilmədiyimiz bu nemətlər indi öz gəlir mənbəyimizə çevrilib

***Bu gün Naxçıvan şəhərində, muxtar respublikamızın rayonlarında çeşid-çeşid geyim əşyaları satılan, müasir dövrün tələbləri ilə ayaqlaşan ticarət mərkəzlərini, çoxsaylı mağazaları gəzərkən yenə də xəyallar adamı illər öncəyə aparır. Düşünürsən ki, insan maddi ehtiyaclarını ödəmək üçün zaman-zaman ağır işlərə sinə gərib, çalışıb, zəhmətə qatlaşıb. "Su kranlarından süd axacaq" kimi pafoslu vədləri eşidib, lakin heç nə görmədiyimiz sovet dövründə özümüz də bilmədən, bəlkə də, dərk etmədən tətbiq olunan böyüklü-kiçikli siyasi oyunların "oyunçularına" çevrilmişdik. İndi bütün bunlar barədə fikirləşəndə heyrət etməyə bilmirsən. Görəsən, bizim şüurumuz indiki qədər deyildi, yoxsa şüurumuzu da inkişaf etməyə qoymurdular?***



Bu gün ticarət mərkəzlərində insanların özlərinə ehtiyac olan geyim əşyalarını seçdiklərini görərkən öz-özümə pıçıldayıram: Nənə-babalarımız, əmi-dayılarımız, bibi-xalalarımız bir vaxtlar elə ki yazpayız oldu, sanki məhkum olunmuşlar kimi qalırdılar dağlarda-daşlarda, yamaclarda həmərsin, kəklikotu kollarının arasında. Günün altında, ilan-çayan təhlükəsi ilə üzüzə səhərdən axşamadək həmərsin, kəklikotu toplayıb çox ucuz qiymətə "dövlətə" təhvil verirdilər. Həmərsin yığmağın necə çətin olduğunu da qeyd etmək istəyirəm. Tikanları çox olan bu kol sanki meyvəsini heç kimə vermək istəmir. Kəklikotunu, digər yabanı bitkiləri toplamaq üçün gün uzunu başıaşağı qalmalısan. Bəs belə isə nə üçün insanlar bu əziyyətlərə qatlaşmalı olmuşdular? Bu, müstəmləkəsində olduğumuz sovet imperiyasının növbəti planlarından biri idi desək, yanılmarıq. Həmin dövrlərdə muxtar respublikamızın rayon və kəndlərində yox, Naxçıvan şəhərində çox az sayda geyim əşyaları mağazaları var idi. O mağazalarda ən zövqsüz, keyfiyyətsiz mallar satılırdı. Camaat layiqli bir paltar tapıb geyinə bilmirdi. Dərdə bax, dövlətin pambıq istehsalı üzrə 15 müttəfiq respublika arasında irəlidə gedən ölkə olsun, sən bir keyfiyyətli geyim tapa bilmə. Burada məqsəd tamamilə başqa idi. Siyasətə baxın: ən keyfiyyətli, gözəl geyimlər, ayaqqabı və çantalar gətirilib şəhər və rayonlarımızdakı xüsusi anbarlara yığılırdı. Neçə ay ərzində min bir əziyyətlə yığılan bitkilər yüksək çəki ilə bir ədəd geyim əşyası ilə dəyişdirilirdi. Qış üçün üst geyimi və çəkmə almaq istəyənlərə isə hökmən qohumları, qonşuları köməklik göstərməli, topladıqları bitkiləri ona verməli idilər. Cavan yaşlılardan fərqli olaraq orta-yaşlı insanlar bu geyimləri özləri geyinməyə qıymırdılar. Həmərsin kollarının didib-parçaladığı əllərinin zəhməti olan bu paltarları ya təhsil alan övladlarının əyninə geyindirir, ya da gəlinlərinə apardıqları toy xonçalarına qoyurdular.

Bu işi tətbiq edib insanların ağır əməyini mənimsəyənlər isə təbii ki, qazanırdılar. Dəniz səviyyəsindən minlərlə metr yüksəkliklərdə şaqraq Günəşdən, saf sulardan, bol oksigendən yararlanan bu bitkilər çox qiymətlidir. Bir çox dərman preparatlarının istehsalında, ədviyyatların, çayların hazırlanmasında istifadə olunan təbiət nemətlərini bir "xarici geyimlə" dəyişdirənlər və yaxud bir kiloqramına çox az pul verənlər, görəsən, bu bitkilərin bir kiloqramını xaricə hansı qiymətə satırdılar?

İsa Əliyev, Ordubad rayon sakini: – Həmərsin olsun, zirinc, kəklikotu, çobanyastığı, digər dərman bitkiləri olsun, yığanlar bilir, ha dərirsən ki, bir kiloqram ola. Sovet dövründə mən də bu bitkilərdən yığıb dövlətə təhvil verənlərdən biri idim. Lakin indi fikirləşirəm ki, nə əməyimiz uzun illər hədər gedib. Çox əziyyətimizə az pul alırdıq. İndi sərbəstlikdir. Get yığ, apar sat. İşdən qorxmaq lazım deyil.

Sultan Məhərrəmov, Şahbuz rayon sakini: – O dövrdə iki bacımı oxudururdum. Kənddə geyim əşyaları satılan mağaza olmadığından onların geyimlərini təmin etmək çox çətin idi. Bunun üçün Naxçıvan şəhərinə gedirdik, düzdür, mağazalar var idi, alırdıq, ancaq onlar gənc bacılarımın zövqünü oxşamırdı. Ona görə də bacılarımla birlikdə bitki toplayıb dövlətə satır, onlara ildə bir-iki paltar alırdıq. Nəzarət çox zəif idi, anbardarlar insanları çox get-gələ salırdı. Günlərlə anbarın qarşısında gözləməli olurduq. Həm də topladığımız məhsulu çox ucuz qiymətə alırdılar… Bu gün isə tam fərqlidir. Həm istehsal etdiyimiz kənd təsərrüfatı məhsullarına, həm də dərman bitkilərinə özümüz qiymət qoyub bazara çıxarırıq. Çəkdiyimiz zəhmətin bəhrəsini görürük.

İllər ötdü. Ölkəmiz çoxdan həsrətində olduğumuz müstəqilliyə qovuşdu. Lakin bu müstəqilliyi asanlıqla əldə etmədik, itkilərimiz çox oldu. Çünki bu ölkənin yeraltı və yerüstü sərvətləri xalqımızı 70 il müstəmləkəsinə çevirən imperiyanın ən yaxşı gəlir mənbələrindən idi. O qədər sərvətin əlindən çıxması hakimiyyətə, təbii ki, böyük zərbə oldu. Bu zərbə isə toplara, mərmilərə çevrilib 70 il əllərinin əməyi mənimsənilən insanlara tuşlandı. Ümummilli liderimiz Heydər Əliyevin sayəsində müstəqilliyimizi də qoruduq, ölkəmizi də inkişaf etdirməyə başladıq. Respublikamızı əhatə edən quruculuq işləri muxtar respublikamızda da uğurlu nəticələrini verdi. Son 23 ildə Naxçıvan böyük inkişaf yolu keçdi. Həmərsin kollarının arasında bir geyim əşyası üçün olmazın əziyyət çəkən insanlar indi Naxçıvan şəhərində ucalan ticarət mərkəzlərindən münasib qiymətlərlə öz zövqlərinə uyğun paltarlar ala bilərlər. Ticarət mərkəzləri quruculuqla yeniləşən rayon və kəndlərimizdə də ucaldılıb. Bütün bunlar isə müstəqilliklə asılılığın fərqini, insanlara verilən dəyəri, qədirbilənliyi qoydu ortalığa. İndi bütün sərvətlərimiz kimi, dağlarımızın, düzənliklərimizin bizlərə ərməğanı olan sərvətlərimiz də özümüzünküdür. Onlardan düzgün və səmərəli yararlanmaq, sovet dövründən fərqli olaraq insanların maddi rifah halının yüksəlməsinə öz töhfəsini verir. İllərdir ki, Naxçıvanda hər kəs həm istehsal etdiyi, həm də topladığı məhsulları bazarlarımızda sata bilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı tədbirlər" haqqında 2017-ci il 22 noyabr tarixli Sərəncamı ilə bir daha ailə təsərrüfatı qurmaq, onu genişləndirmək, istehsal etdiyi məhsulları, topladığı mədəni və yabanı bitkiləri sərbəst şəkildə bazarlarda realizə etmək istəyən insanlar qarşısında böyük imkanlar açıldı. Ötən ilin noyabr ayında "Ailə təsərrüfatı məhsulları" festivalının keçirilməsi isə bu insanların zəhmətlərinin yüksək səviyyədə qiymətləndirilməsinin, onlara hər cür şəraitin yaradılmasının daha bir göstəricisi oldu. Ailə təsərrüfatını quranlara Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən etiketlər pulsuz verilir. Naxçıvan şəhərində ailə təsərrüfatı məhsulları üçün taraların satışı mağazası istifadəyə verilib. Həmin təsərrüfatların sahibləri istənilən vaxt mağazaya müraciət edib müasir və standartlara cavab verən məhsullarının satışına müsbət təsir edəcək taraları asanlıqla əldə edə bilərlər.

Bu gün ailə təsərrüfatını yaradanların əksəriyyəti sovet dövründə zəhmətləri ucuz qiymətləndirilən insanlardır. Ona görə də yaradılan hərtərəfli şəraiti yüksək qiymətləndirirlər. İndi onlar topladıqları dərman bitkilərini bazar qiymətinə satırlar. Bu isə o deməkdir ki, toplanması çox çətinliklə başa gələn bu işdə zəhmətləri hədər getmir. Bazarlar onların üzünə açıqdır, sərbəst satırlar. Ticarət mərkəzləri, mağazalar üzlərinə açıqdır, büdcələrinə uyğun alırlar.

Mətanət MƏMMƏDOVA



## Gənclər diplomlarla təltif olunublar

*Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar Naxçıvanda keçirilən "Avropa günləri"ndə könüllü kimi iştirak etmiş gənclərlə görüş olub.*

Görüşdə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxış edərək bildirib ki, dövlətin apardığı gənclər siyasəti nəticəsində gənclərimiz cəmiyyətimizin inkişafında fəal sosial təbəqəyə çevriliblər. Son illər bu sahədə görülən işlər, həyata keçirilən tədbirlərin bariz nümunəsidir ki, bu gün Naxçıvan gəncləri öz intellektual səviyyələri, bilik və bacarıqları ilə ölkədə tanınır və qəbul olunurlar. Gənclərin yüksək səviyyədə təhsil alması, intellektual səviyyəsinin yüksəldilməsi, dünyagörüşünün formalaşması və asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə muxtar respublikada "Gənclik" Mərkəzi, ali təhsil müəssisələrində yeni tədris korpusları, olimpiya-idman kompleksləri və digər obyektlər tikilib və ya əsaslı təmir olunaraq gənclərin istifadəsinə verilib. Muxtar respublika rəhbərinin diqqət və qayğısı sayəsində gənclərin vətənpərvər ruhda tərbiyə olunması işi günün tələbləri səviyyəsində saxlanılır.

Nazir gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra tədbir iştirakçılarına nazirlik tərəfindən sertifikatlar təqdim edilib.

## Kəngərli rayonunda seminar keçirilib



Kəngərli Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı Gənclər Birliyinin birgə təşkilatçılığı ilə rayonun Akademik Zərifə xanım Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbində "Sosial şəbəkələrin müsbət və mənfi xüsusiyyətləri" mövzusunda seminar keçirilib.

Tədbirdə rayon Gənclər və İdman İdarəsinin rəisi Vüsal Hüseynov və Şahtaxtı kənd tam orta məktəbinin direktoru Sarvan Məmmədov çıxış edərək tədbirin məqsədi haqqında məlumat veriblər. Sonra rayon Gənclər və İdman İdarəsinin əməkdaşı Zeynəb Mehdiyeva hazırlanmış slayd vasitəsilə mövzu ətrafında çıxış edib, şagirdləri maraqlandıran sualları cavablandırıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

Qarnizon xəbərləri

## Artilleriya bölmələri döyüş atışlı taktiki təlimlərdə iştirak edib



Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının artilleriya bölmələri ilə döyüş atışlı taktiki təlimlər keçirilib.

Təlimin ssenarisinə əsasən həyəcan siqnalı ilə qaldırılaraq təlim rayonunda atəş mövqelərini tutan artilleriya bölmələri minaatan və artilleriya qurğularından döyüş atışlarını icra ediblər. Planlı və plandankənar hədəfləri məhv edən artilleriyaçılar qarşıya qoyulan məqsədlərə nail olublar.

## Konsert proqramı xoş əhval-ruhiyyə ilə başa çatıb



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupu Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsində əsgərlər qarşısında növbəti konsert proqramı ilə çıxış edib.

Şəxsi heyətin mədəni asudə vaxtının səmərəli təşkili və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi məqsədilə keçirilən tədbirdə hərbi hissənin bədii özfəaliyyət kollektivi də iştirak edib.

## Hərbi qulluqçular arasında futbol birinciliyi



Naxçıvan Qarnizonu üzrə hərbi qulluqçular arasında futbol birinciliyinə start verilib.

"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan birincilikdə 17 komanda mübarizə aparır.

Əlahiddə Ümumqoşun Ordu komandanlığının təşkil etdiyi və olimpiya sistemi ilə keçirilən birinciliyi Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının hakimləri idarə edirlər.

Nəriman NƏCƏFOV

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 703